Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 8 (1136) 15 yanvar - 16 yanvar 2016-cı il

# NEFTÇALA - 2015

**Bəlli olduğu kimi, ölkənin iqtisadi qüdrətini artırmaq üçün dövlət proqramı qəbul olunub. Regionların inkişafına dair olan bu proqramın tərkib hissəsi təbii ki, quruculuq, abadlıq deyil, həm də ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi məqsədini ifadə edir.**

> **"...Görülən işlər ictimaiyyəti daha da ruhlandırır, böyük işlərə sövq edir ki, biz ölkəmizi daha da gücləndirək, daha da zənginləşdirək, insanlar rifah, sülh, təhlükəsizlik içərisində daha da yaxşı yaşasınlar və bundan sonra da dinamik inkişaf təmin edilsin".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Yəni hər bir abadlıq, hər bir quruculuq insana xidmət etməlidi. Bu mənada Azərbaycanın bütün regionlarında təbii ki, ölkə prezidentinin imzaladığı Dövlət Proqramına uyğun olaraq böyük işlər görülür. Biz Neftçalada olarkən ölkənin regionlarında müşahidə etdiyimiz inkişafın oxşar cəhətlərini burada da gördük və elə rayon sakinləri ilə ilk təmasımızdan hiss etdik ki, 2015-ci il neftçalalılar üçün yaddaqalan olubdu. Təbii ki, hər bir gerçək faktlarla, təqdim olunan sübutlarla özünü daha yaxşı ifadə edir. Ona görə də Neftçala şəhərini gəzib, onun park və xiyabanlarını, küçə və meydanlarını gözdən keçirəndə əmin olduq ki, həqiqətən də 2015-ci ildə Azərbaycanın bu bölgəsində xeyli işlər görülüb. Neftçala şəhərinin mərkəzində qarşılaşdığımız sakinlərdən biri vurğuladı ki, bu gün rayonda görülən işlərin müsbət tərəflərindən biri də odur ki, təkcə icra strukturları deyil, bələdiyyələr də rayonun abadlaşması, müasirləşməsi üçün xeyli işlər görüb. Necə deyərlər, hər iki qurum əl-ələ verib işləyir. Ona görə də bu gün Neftçalada aparılan abadlıq işlərində bələdiyyənin payı özünü tam şəkilldə büruzə verir.

Doğurdan da yerli qurumların birgə işləməsi, qarşıya qoyulan məqsəd naminə birgə əməli proqram hazırlaması həmişə son nəticənin uğurlu olmasına səbəb olur. Yəni bir yükün altına hər iki tərəfin çiyin verməsi o yükün aradan qaldırılmasında həm birliyi, həm də böyük gücü ifadə edibdi. Bax, elə bu mənada Neftçalada aparılan abadlıq-quruculuq işlərində də həmin o nümunə öz effektivliyini göstərir. Biz də bunun faktlarla şahidi olduq və gördük ki, əhalisinin sayı 40 min nəfərə çatmış Neftçala şəhərində əsas diqqət rayon əhalisinin sosial-iqtisadi durumuna, onun ailə büdcəsinin möhkəmlənməsinə yönəldilibdi. Hər bir qurum rəhbəri, hər bir bələdiyyə üzvü birmənalı şəkildə çalışıb ki, onun təmsil etdiyi bölgənin insanları mövcud problemlərdən daha tez xilas ola bilsin. Hər kəsin süfrəsində çörək, evində işıq, istilik olsun. Elə bu səbəbdən də üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışan maddi məsul şəxslər öz fəaliyyətləri ilə həmyerlilərinə də nümunə olmağı bacarıblar. Nəticədə insanların gücü birləşərək el gücünə çevrilibdi.



Bu gün ötən illərlə müqayisədə gözəlləşən, abadlaşan Neftçala şəhərində bir abadlıq, bir səliqə-səhman diqqəti çəkir. Küçələrdə, xiyabanlarda insanların rahatlığı üçün yaradılmış hər bir yerdə yeni nəfəs gözəl bir durum özünü ifadə edir. Bu da onu göstərir ki, quruculuq, abadlıq, bir sözlə, insanların xidmətinə yönəldilən hər bir iş sevincə səbəb olur, rahatlıq yaradır. Bax, bu mənada Neftçala şəhərində Ulu Öndərin adını daşıyan prospektdə, eləcə də mərkəzi istirahət və mədəniyyət parkında, Şəhidlər Xiyabanında yaradılmış şərait göz, könül oxşayır. Təsadüfi deyil ki, rayon bələdiyyəsi təkcə Neftçala şəhərində yolların təmirinə təqribən 2400 manat pul xərcləmişdi. Bu da təkcə xərclənən vəsaitin ifadəsi demək deyil. Əslində bu məbləğ bələdiyyə adlı qurumun və ona dəstək verən insanların öz imkanları daxilində gördüklərin işin göstəricisidir. Ona görə ki, bu işin həyata keçirilməsində sakinlər könüllü şəkildə iştirak ediblər. Yəni görülən iş həmin iştirakçıların, həmin insanların özlərinə xidmət edibdi. Zənnimizcə bu cür fəaliyyət hər kəsin içindən gəldiyinə görə qiymətlidir, diqqətçəkəndir. Üstəlik də bu, hər kəsin hamı üçün çalışması anlamını da ortaya gətirir.



Bəli, bu gün Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq həyata keçirilən böyük işlərin fonunda Neftçalada da görülən işlər təbii ki, bölgə üçün böyük önəm kəsb edir. Yəni Azərbaycan Prezidenti cənab İlham Əliyevin bütün bölgələr kimi Neftçalaya da göstərdiyi diqqət və qayğı əməli işdə özünü sübut edir. Təkcə rayonun mərkəzində deyil, onun qəsəbə və kəndlərində həyata keçirilən abadlıq, quruculuq işləri istifadəyə verilən obyektlər dediklərimizi sübut edir. Əgər faktlara üz tutsaq, onda görərik ki, Neftçala rayonunun Bankə qəsəbəsində, 2-ci Mayak, Şorkənd, Şirvanlı kəndlərində aparılan abadlıq işləri, xüsusilə yolların asfaltlaşdırılması, genişləndirilib yenidən qurulması onu göstərir ki, digər bölgələrimiz kimi, bu regionda da abadlığın nümunəsi olan yollara, küçələrə xüsusi diqqət yetirilir. İşıq dirəklərindən tutmuş səkilərə bardurlərə qədər hər bir görülən iş təbii ki, rayon əhalisinin mövcud durumunu yaxşılaşdırmağa, onların rahatlığını təmin etməyə yönəldilibdi. Yeri gəlmişkən onu da qeyd etmək yerinə düşər ki, bu gün Neftçalada görülən işlərin arasında milli adət-ənənələrimizə uyğun olaraq təkcə şadlıq evləri, istirahət guşələri deyil, həm də insanların qaçılmaz bir durumunu, yəni son mənzilə yola salınmasının normal şəkildə təşkili üçün də müvafiq addımlar atılıb. Rayon ərazisində tikilən xeyir-şər mərasim evləri məhz bu məqsədə xidmət edir. İndiki iqtisadi durumun o qədər də həm dünyada, həm də təbii ki, Azərbaycanda xoş olmadığı bir məqamda həmin xeyir-şər mərasim evlərinin mövcudluğu müəyyən problemlərin aradan qaldırılmasında öz təsirini göstərə bilir.

Bəli, bu gün gəzib gördüyümüz, müşahidələr apardığımız Neftçalada görülən işlərin əhatəsi onu deməyə əsas verir ki, bu regionda ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində qətiyyətli addımlar atılır.

**(ardı var)**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ